# Moğanlı tayfası köçərilərinin etirazı: Biz haqqımızı istəyirik!




Moğanlı tayfasından bir qrup köçəri, o cümlədən Qara Təpə Qışlağı əhalisi Ərdəbil valiliyi binası qarşısına toplaşaraq, hakimiyyətin diqqətsizliyinə və hökumətin vədlərini yerinə yetirməməsinə etiraz ediblər.

Bu tayfanın, o cümlədən Qara Təpə Qışlağı əhalisi hakimiyyət orqanlarının köçərilərin vəziyyətinə diqqət yetirməməsinə etiraz olaraq Ərdəbil valiliyi binası qarşısında etiraz aksiyası keçiriblər:

Əllərində “Vəd istəmirik, haqqımızı istəyirik” və “Hörmətli vali, dəstəyimizi əsirgəməyin” mövzulu plakatlar tutan etirazçılar hakimiyyətin problemlərin həllinə diqqətsizliyinə etirazlarını bildiriblər.

Çıxışlarda qeyd olunub ki, məmurların qışlaqların vəziyyətinə diqqət yetirmir, su təchizatı layihələri həyata keçirilmir, yolların tikintisi, hamarlanması, təmiri və abadlaşdırılması, mal-qara təchizatında və sair çatışmazlıqlar baş alıb gedir.

Sentyabrın son günündə Ərdəbil əyalətinin Köçəri işləri üzrə baş direktoru Təhmasbpur köçərilərin vəziyyəti ilə bağlı keçirdiyi mətbuat konfransında əyalətin bu qəbildən olan əhalisinin kəskin azalması səbəblərindən danışıb:

-Keçən il köçərilərin 30 faizi, bu ilin 6 ayında isə 20 faizi heyvandarlığı tərk edib. Keçən il 13 min köçəri ailəyə vəsiqə verilibsə, bu il bu rəqəm 9458-ə

çatıb. Cəmiyyətdə hökm sürən iqtisadi vəziyyəti nəzərə alsaq, təsərrüfat azalıb ki, bu da istehsal sahəsinə ölümcül zərbədir.